# AZƏRBAYCAN ELM FONDU

**Azərbaycan Elm Fondunun Gənc Alim və Tədqiqatçıların 6-cı qrant müsabiqəsinin (EİF-GAT-6-2021-2(39)) qalibi olmuş layihənin yerinə yetirilməsi üzrə**

## YEKUN ELMİ-TEXNİKİ HESABAT

Layihənin adı: **Qarabağın mədəni-tarixi abidələrinin bərpası planları**

Layihə rəhbərinin soyadı, adı və atasının adı: **İmaməliyeva Nigar Hümmət qızı**

Qrantın məbləği: **45 000 manat**

Layihənin nömrəsi: **EİF-GAT-6-2021-2(39)-13/11/5-M-11**

Müqavilənin imzalanma tarixi: **11 fevral 2022-ci il**

Qrant layihəsinin yerinə yetirilmə müddəti: **12 ay**

Layihənin icra müddəti (başlama və bitmə tarixi): **01 mart 2022-ci il – 01 mart 2023-cü il**

Diqqət! Bütün məlumatlar 12 ölçülü Arial şrifti ilə, 1 intervalla doldurulmalıdır

Diqqət! Uyğun məlumat olmadığı təqdirdə müvafiq bölmə boş buraxılır

Hesabatda aşağıdakı məsələlər işıqlandırılmalıdır:

| | |
|---|---|
| 1 | Layihənin həyata keçirilməsi üzrə yerinə yetirilmiş işlər, istifadə olunmuş üsul və yanaşmalar |
| | Vətən torpağı bizim üçün səcdəgahdır, toxunulmazdır, müqəddəsdir. Əsl vətəndaş odur ki, öz vətənini qəlbi ilə, canı və qanı ilə sevir. Torpağa, yurda sevginin əsası isə ailədə və məktəbdə qoyulur. Çox yaxşı yadımdadır ki, 1998-ci ildə məktəbə gedərkən müəllimımiz bizə yazmağı və oxumağı öyrətməklə yanaşı, Qarabağın işğal olunmasından xüsusi ilə danışardı. Hətta sinif otağımızda işğal olunmuş ərazilərimizin adları və işğal tarixləri qara hərflərlə yazılmış lövhədə divardan asılmışdı. Qan yaddaşımızı unutmamaq üçün hər il anım günlərində anım tədbirləri keçirərdik. Məhz həmin ərəfələrdən etibarən artıq vətənpərvərlik hissi məndə və sinif yoldaşlarımda yaranmışdı. Biz bu vətəndə yaşayır, bu vətənin havasını udur, bu vətənin suyunu içiriksə Vətənimizin uğurunda canımızdan, qanımızdan belə keçməyə hazırıq. Mən xoşbəxt gəncəm ki, mənim uşaqlıq illərim Ulu Öndər Heydər Əliyevin Azərbaycan Respublikasına Prezident təyin edildiyi ərəfələrə düşmüşdür. Artıq 1993-cü ilin oktyabr ayından sonra ölkədə hərc-mərclk durdurulmuş, mənfur düşmən tərəfindən torpaqlarımızın işğalı dayandırılmışdır. Ulu Öndər Heydər Əliyev hakimiyyətdə olduğu dövrlərdə Qarabağ məsələsinin sülh yolu ilə, beynəlxalq hüquq normalarına uyğun ədalətli həllinə çalışmışdır. Qarabağın və ətraf rayonların işğalı nəticəsində 1 milyon insan ev-eşiklərindən, yurd-yuvalarından didərgin düşmüşdür.<br>Ümummilli lider Heydər Əliyev Qarabağ həqiqətlərini bütün dünya ictimaiyyətinə olduğu kimi |

çatdırmaq üçün var qüvvəsi ilə çalışmışdır. Ümummilli lider istər dövlət başçıları, istərsə də xarici ölkələrdə olan Azərbaycan diasporunun nümayəndələri, iş adamları, qeyri-hökumət təşkilatlarının nümayəndələri ilə görüşlərində Dağlıq Qarabağın Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsi olması fikrini əsaslandırmış və buna da nail olmuşdur.

Ümummilli lider Heydər Əliyevin özü qədər inandığı və uzaqgörənliyinin nəticəsi olaraq xalqın istəyilə 2003-cü ildən ölkəyə oğlu cənab Prezident İlham Əliyev rəhbərlik etməyə başlamışdır. Artıq bundan sonra ölkənin taleyi, xüsusən də Qarabağın problemini həll etmək məsələsi artıq prezidentin üzərinə düşmüş önəmli bir məsələ idi. Respublikanın müxtəlif regionlarında müvəqqəti məskunlaşan qaçqın və məcburi-köçkünlər hər dəfə cənab Prezidentə məktublar yollayanda öz ev-eşiklərinə qayıtmaq arzusunda olduqlarını vurğulayırdılar.

Qarabağ Azərbaycanın, həm də dünyanın daha qədim tarixə malik olan ərazilərindəndir. Bu anlamda Qarabağ tarixi-mədəni abidələri, ədəbiyyatı, incəsənəti və musiqisi ilə zəngin bir ərazidir. Belə koloritli səciyyəyə malik olan Qarabağ bölgəsi dünyanın bir sıra alimləri tərəfindən də maraqla qəbul edilir. Qarabağ və ətrafındakı digər rayonlara məxsus tarixi - mədəni irs əslində türk dünyası üçün əvəzsiz xəzinədir. Bu irs türk kökənli xalqlara xas xüsusiyyətləri üzərində daşıyır. Müxtəlif incəsənət nümunələrinin, əlyazmaların, sənət əsərlərinin, abidələrin, bir sözlə, bu zəngin xəzinənin mənfur qonşularımız tərəfindən məhv edilməsi və mənimsənilməsi ümumilikdə Türk mədəniyyəti və tarixinə, o cümlədən, bəşər mədəniyyətinə vurulmuş böyük bir zərbədir.

Tarix və mədəniyyət abidələri, arxeoloji və memarlıq obyektləri, etnoqrafik, epiqrafik, tarixi hadisə və şəxsiyyətlərlə bağlı xatirə yerləri, bina, numizmatik və s. əşyalar xalqın dünyəvi və dini görüşləri ilə sıx bağlıdır. Abidələr **daşınar və daşınmaz** ola bilər. Daşınar abidələr muzeylərdə, arxivlərdə, sərgilərdə və digər yerlərdə; daşınmaz abidələr isə arxeoloji və memarlıq abidələri qismində mövcud olduğu və inşa edildiyi yerlərdə qorunur. **Arxeoloji abidələrə** - qədim yollar, arxlar, ovdan və kəhrizlər, su kəmərləri, ziyarətgahlar, dini və xatirə abidələri, ibtidai insan düşərgələri və yaşayış yerləri, sınıq körpülər və s.; **tarixi abidələrə -** dövlət və hərbi xadimlərin, Milli qəhrəmanların, elm və incəsənət nümayəndələrinin mənzilləri, sənəd və əşyaları və s. etnoqrafik abidələrə **-** sənətkarlıq və təsərrüfat həyatı ilə bağlı əmək alətləri və s. epiqrafik abidələrə - üzərində yazılar olan müxtəlif metal nümunələri, daş, gil və s.; **memarlıq abidələrinə** - bağ-parklar, xiyabanlar, bulaqlar, yeni yaranmış memarlıq abidələri, memarlıq-inşaat binaları, yardımçı obyektlər, məskənsalma abidələri və s.; **sənədli abidələrə** - qədim əlyazmaları, rəsmi dövlət orqanlarının aktları, foto və kino arxivləri və s.; **incəsənət abidələrinə** - tarixi və estetik dəyəri olan sənət nümunələri, **qoruqlara** – dövlət tərəfindən mühafizə edilən ərazilər və ya məskənlər daxildir. Abidələr **dünya, ölkə** və **yerli əhəmiyyətli** olmaqla üç yerə bölünür. Məsələn, Ağdam şəhəri yaxınlığında yerləşən **dünya əhəmiyyətli** Üzərliktəpə, Qutlu Musa türbəsi, Kəlbəcər rayonunda yerləşən Gəncəsər monastrı, Şuşada yerləşən Şuşa Dövlət Tarix-Memarlıq qoruğu; Füzulidə **ölkə əhəmiyyətli** Arğalı türbəsi, Xocavənddə Amaras monastrı, Qubadlıda Gürcülü türbəsi, Şuşada – Xan qızı Natəvanın evi, M.P.Vaqifin türbəsi, Karvansaray axırı, Zəngilanda – Şərifan yaşayış yeri və sərdabələri, Dairəvi qüllə və s.; Ağdamda **yerli əhəmiyyətli** Pənahəli xanın türbəsi, Maşallah məscidi, Füzulidə - Müəllimlər evi, Qarğabazar karvansarayı, Laçında – Güləbird türbəsi, Həmzə Sultan sarayı, Qubadlıda Cümə və Böyüklər məscidləri və s. səciyyəli abidələri göstərmək olar.

Layihənin yerinə yetirilməsi zamanı elmi tutumlu kitablardan istifadə olunaraq istinadlar verilmiş,aidiyyəti olan saytların xəbərləri araşdırılmış, eyni abidə haqqında yazılan elmi yazıları və toplama materialları bir-birilə müqayisə edilmişdir. O cümlədən qarabağlılardan və elm adamlarından abidələr haqqında müxtəlif fikir, məlumatlar alınmışdır.

Təəssüflər olsun ki, Qarabağ ermənilər tərəfindən işğalda olarkən müxtəlif mədəni-tarixi abidələrimiz tamam və qismən dağıdılmışdır. Məscidlərimizdə heyvanların saxlanılması isə çox acınacaqlı vəziyyət idi. 1 il ərzində abidələrimiz haqqında müxtəlif məqalələr yazaraq həm daxili, həm də beynəlxalq jurnallarda çap olunmasına nail olduq. Düşünürəm ki, bu iş yenə davam

| | |
|---|---|
| | etdirilməlidir. Çünki izi tamamilə silinmiş abidələrimiz haqqında məlumatlar beynəlxalq mətbuatda, dövri jurnallarda çox az səviyyədədir. |
| **2** | Layihənin həyata keçirilməsi üzrə planda nəzərdə tutulmuş işlərin yerinə yetirilmə dərəcəsi (faizlə qiymətləndirməli) |
| | 85 faiz |
| **3** | Hesabat dövründə alınmış **elmi nəticələr** (onların yenilik dərəcəsi, elmi və təcrübi əhəmiyyəti, nəticələrin istifadəsi və tətbiqi mümkün olan sahələr aydın şəkildə göstərilməlidir) |
| | 27 sentyabr 2020-ci il tarixində Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə başlanan Vətən müharibəsi şanlı qələbə ilə sona çatdı, 44 gün davam edən hərbi əməliyyatlar çərçivəsində Azərbaycan Ordusu işğalçı Ermənistanın 30 il ərzində qurduğu silahlı qüvvələrini darmadağın edərək, böyük zəfərə imza atdı. Nəhayət, düşmən ağ bayraq qaldıraraq təslim olduğunu açıqladı. Döyüşlərdə bütün dünya Azərbaycan xalqının əzmini, Azərbaycan Ordusunun döyüş qabiliyyətini aydın gördü. Vətənpərvər xalqımızın öz Prezidentini necə dəstəklədiyi, onun ətrafında sıx birləşdiyi bir daha təsdiqləndi. “Ali Baş Komandanın bircə əmrinə hazırıq” – deyən Azərbaycan əsgəri və zabitləri öz sözlərinin sahibi olduqlarını döyüşdə sübuta yetirdilər. “Dəmir yumruq” əməliyyatı adı ilə Azərbaycanın yeni tarixinə yazılan Vətən Müharibəsində rəşadətli Ordumuzun Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazandığı böyük Qələbə müasir Azərbaycan dövlətinin hərbi qüdrətinin və Azərbaycan xalqının qələbə əzminin əyani təsdiqidir.<br>Uzun illər davam etmiş işğal zamanı Ermənistanın təcavüzkar siyasəti nəticəsində Azərbaycan xalqına məxsus daşınmaz tarix və mədəniyyət abidələri dağıdılıb, mənimsənilib, tarixi-mədəni təyinatına uyğun olmayan şəkildə istifadə olunaraq vandalizmə məruz qalıb. Erməni silahlı qüvvələri tərəfindən ən çox dağıdılan daşınmaz mədəni irs nümunələri İslam dini abidələri – məscidlər, türbələr və digər inanc yerləri olub. Ermənilər məscidlərin içərisində ev heyvanları (donuz) saxlamaqla azərbaycanlılara qarşı öz nifrətlərini ortaya qoyublar. İşğal olunmuş ərazilərdə yerləşən mədəni irsə, o cümlədən xüsusi əhəmiyyətə malik unikal abidələrə bu cür barbarcasına münasibət dünya irsinə qarşı yönəlmiş təhdid kimi dəyərləndirilməlidir.<br>Qarabağ abidələrinin bir çoxu Azərbaycanda memorial tikililərin əsas növünü təşkil edir. Ərazidə xeyli sayda müxtəlif növ mədəniyyət abidələri qeydə alınmışdır. Şuşa, Ağdam, Bərdə, Füzuli, Zəngilan, Cəbrayıl, Xocavənd, Laçın, Kəlbəcər, Qubadlı, Xocalı rayonları ərazisindən vaxtilə xeyli tikinti, qəbir və s. abidələr qeydə alınmış və bu gün də tədqiq edilməkdədir. Qarabağda qalalar salınmış və həmin qalalarda məscid, karvansaray, bazar, hamam, imarətlər, Xan və onun nəslinə aid kümbəzlər tikilmişdir. Yaşayış evlərinin, ictimai tikililərin interyerlərində divar naxışlarının gözəl və tipik nümunələri memarlar tərəfindən ustalıqla yaradılmışdır.<br>Qarabağda aparılan arxeoloji qazıntılar zamanı aşkar edilmiş müxtəlif tarixi-mədəni tikinti qalıqları orta əsrlər tikinti mədəniyyətindən xəbər verir. Həmin dövrdə tikililər dairəvi və düzbucaqlı formada aparılırdı. Regionda sadə quruluşlu evlərdə belə, həndəsi və nəbati naxışlardan istifadə olunmuşdur. Bu naxışlardan məişət əşyalarının hazırlanmasında və toxuculuqda da geniş istifadə olunmuşdur.<br>Bu gün danılmaz faktdır ki, Heydər Əliyev Fondunun prezidenti, ölkənin birinci vitse-prezidenti Mehriban Əliyevanın başlıca məqsədi Azərbaycanın tərəqqisi və xalqın rifahının yaxşılaşmasına xidmət edən genişmiqyaslı proqram və layihələrin reallaşmasına dəstək vermək, elm, təhsil, mədəniyyət, səhiyyə, idman, elmi tədqiqatların aparılmasına yardım göstərmək, ölkə həqiqətlərini dünya ictimaiyyətinə çatdırmaq, dini tolerantlığın bərqərar olmasını və digər işləri təşkil və təmin etməkdir.<br>Heydər Əliyev Fondunun nəşr etdirdiyi “Qarabağ həqiqətləri” toplusu dünyaya yayılır, erməni qəsbkarlarının iç üzünü açır. “Qarabağın tarixi haqqında qısa məlumat”, “Qarabağ münaqişəsinin başlanması”, “Xocalı soyqırımı”, “Erməni terror təşkilatlarının Azərbaycana qarşı fəaliyyəti”, “Azərbaycana qarşı erməni təcavüzünün nəticələri” adlanan beş bukletdən ibarət olan bu topluda mövzular üzrə faktlar, obyektiv məlumatlar, fotoşəkillər, xəritələr toplanmışdır. |

| | |
|---|---|
| | Abidənin tikildiyi dövrün memarlığının ümumi səciyyəsinin dərindən öyrənilməsi, dövrün memarlıq və inşaat üsullarının hərtərəfli tədqiq edilməsi bu iş üçün vacibdir. Ancaq geniş tədqiqat nəticəsində keçmiş ustaların yaradıcılıq üsullarını müəyyənləşdirmək və onların iş üsullarına, bədii üslublarına yiyələnmək mümkündür.<br>Müəyyən bir abidənin dağılmış hissələrini, elmi əsaslara görə, bərpa etmək üçün həmin abidənin daxil olduğu abidələr qrupu hərtərəfli öyrənilməlidir. Bu yol ilə dağılmış hissələri bərpa etmək üçün əsas verən oxşar hallar meydana çıxarıla bilər. Dağılmış bir abidədə yox olmuş bu və ya digər hissə başqa oxşar abidəyə əsasən yenidən bərpa edilir. Bunun üçün nəinki həmin ölkə daxilində yayılmış abidələri, hətta bir sıra qonşu ölkələrin oxşar abidələrini də tədqiq etmək lazım gəlir. |
| 4 | Layihə üzrə **elmi nəşrlər** (elmi jurnallarda məqalələr, monoqrafiyalar, icmallar, konfrans materiallarında məqalələr, tezislər) (dərc olunmuş, çapa qəbul olunmuş və çapa göndərilmişləri ayrılıqda qeyd etməklə, uyğun məlumat - jurnalın adı, nömrəsi, cildi, səhifələri, nəşriyyat, indeksi, İmpact Factor, həmmüəlliflər və s. bunun kimi məlumatlar - ciddi şəkildə dəqiq olaraq göstərilməlidir) *(surətlərini kağız üzərində və CD şəklində əlavə etməli!)* |
| | 1. İmaməliyeva N. Qarabağın tarixi-mədəni abidələri. Xəzan ədəbi-bədii jurnal. Bakı, 2022 mart-aprel. N2/39<br>2. Nigar İmaməliyeva. Cəbrayıl: dünən və bu gün. Yurd ədəbi-bədii, elmi-publisistik jurnal. N10, 2022. S.85-88<br>3. İmaməliyeva N. Zəngilan keçmişdən bu günə. Yurd ədəbi-bədii, elmi-publisistik jurnal. N02, 2023. S.97-100<br>4. Imamaliyeva N., Qurbanli J. Historical and cultural monuments of Karabakh. “Annali d’Italia” (ISSN 3572-2436) journal. VOL.2. İtaliya, N30/2022, s.12-14 http://www.anditalia.com/wp-content/uploads/2022/04/Annali-d’Italia-№30-part-2-2022.pdf<br>5. Imamaliyeva N., Dunyamaliyeva G. The City Of The Fort Of Power. Danish Scientific journal N63/2022, ISSN 3375-2389. s. 22-24 http://www.danish-journal.com/wp-content/uploads-/2022/09/DSJ_63.pdf<br>6. İmamaliyeva N., Dargahzade S. Jabrail: yesterday and today. Danish scientific journal N66/2022, ISSN: 3375-2389. S.9-12 http://www.danish-journal.com/wp-content/uploads/2023/01/-DSJ_66.pdf<br>7. KONFRANS - Nigar İmaməliyeva. Şuşanın Mədəni-Tarixi Abidələri (Cultural and Historical Monuments Shusha). Karabakh III. International Congress of Modern Studies in Social Sciences and Humanities “Year of Shusha - 2022”. Proceeding Book Volume – 2, ISBN: 978-625-8323-18-4. s. 284-288 www.karabaghconference.com |
| 5 | İxtira və patentlər, səmərələşdirici təkliflər |
| | yoxdur |
| 6 | Layihə üzrə ezamiyyətlər (ezamiyyə baş tutmuş təşkilatın adı, şəhər və ölkə, ezamiyyə tarixləri, həmçinin ezamiyyə vaxtı baş tutmuş müzakirələr, görüşlər, seminarlarda çıxışlar və s. dəqiq göstərilməlidir) |
| | yoxdur |
| 7 | Layihə üzrə elmi ekspedisiyalarda iştirak (əgər varsa) |
| | Azərbaycan Milli Elmlər Akademiyası Tarix Muzeyi |
| 8 | Layihə üzrə digər tədbirlərdə iştirak |
| | *(burada doldurmalı)*<br>YAP Yasamal rayon təşkilatında təşkil edilmiş “Şuşa, sən azadsan” adlı tədbirdə iştirak |
| 9 | Layihə mövzusu üzrə elmi məruzələr (seminar, dəyirmi masa, konfrans, qurultay, simpozium və s. çıxışlar) (məlumat tam şəkildə göstərilməlidir: a) məruzənin növü: plenar, dəvətli, şifahi və ya divar |

| | |
|---|---|
| | məruzəsi; b) tədbirin kateqoriyası: ölkədaxili, regional, beynəlxalq) |
| | *(burada doldurmalı)*<br>Şuşa ilinə həsr olunmuş Qarabağ III Sosial və Humanitar Elmlər üzrə Beynəlxalq Müasir Araşdırmalar Konqrensində "Şuşanın mədəni-tarixi abidələri" adlı məruzə ilə çıxış |
| **10** | Layihə üzrə əldə olunmuş cihaz, avadanlıq və qurğular, mal və materiallar, komplektləşdirmə məmulatları |
| | yoxdur |
| **11** | Yerli həmkarlarla əlaqələr |
| | *(burada doldurmalı)*<br>1. AMEA Folklor İnstitutunun direktoru, akademik Muxtar İmanov<br>2. Filologiya elmləri doktoru Mətanət Abbasova<br>3. Filologiya üzrə fəlsəfə doktoru, dosent Sönməz Abbaslı<br>4. DTX-nin ehtiyatda olan polkovniki Mahir Cavadov<br>5. Laçın rayonu Qozlu tam orta məktəbin direktoru, filologiya üzrə fəlsəfə doktoru Aytac Abbasova<br>6. Zəngilan rayon sakini Möhübbət Qurbanov<br>7. AMEA Tarix Muzeyi Qarabağ fondunun müdiri Şəfa Mövsümov<br>8. YAP Yasamal rayon təşkilatının sədri, tarixçi Bəxtiyar Nəbiyev<br>9. Filologiya elmləri doktoru Leyla Məmmədova<br>10. Professor Seyfəddin Rzasoy<br>11. Filologiya elmləri doktoru Ramazan Qafarlı<br>12. AMEA, elmi işçi Nailə Əbilova<br>13. Filologiya üzrə fəlsəfə doktoru Arzu Məmmədxanlı<br>14. Azərbaycan Dövlət İqtisad Universiteti, Qiyabi və əlavə təhsil mərkəzinin direktoru Səbuhi Tanrıverdiyev<br>15. Azərbaycan Dövlət İqtisad Universiteti, müəllimə Könül İbrahimova<br>16. AMEA, filologiya üzrə fəlsəfə doktoru, dosent Gülnar Osmanova<br>17. AMEA, filologiya üzrə fəlsəfə doktoru, dosent Şəbnəm Məmmədli<br>18. AMEA, elmi işçi Gülnar İsmayılova |
| **12** | Xarici həmkarlarla əlaqələr |
| | *(burada doldurmalı)*<br>1. Türkiyə, Mersin Universiteti, professor Serkan Gökalp<br>2. Türkiyə, Marmara Universiteti, Şükrü Olcay<br>3. Türkiyə, professor Necdet Kurt<br>4. Türkiyə, Ardahan, professor Ərdoğan Altınkaynak<br>5. Türkiyə, Yıldız Çelik<br>6. Qazaxstan, Abay Universiteti, dosent Dinara Ashimova |
| **13** | Layihə mövzusu üzrə kadr hazırlığı (əgər varsa) |
| | yoxdur |
| **14** | Sərgilərdə iştirak (əgər baş tutubsa) |
| | yoxdur |
| **15** | Təcrübəartırmada iştirak və təcrübə mübadiləsi (əgər baş tutubsa) |
| | yoxdur |
| **16** | Layihə mövzusu ilə bağlı elmi-kütləvi nəşrlər, kütləvi informasiya vasitələrində çıxışlar, yeni yaradılmış internet səhifələri və s. (məlumatı tam şəkildə göstərilməlidir) |
| | yoxdur |

**SİFARİŞÇİ:**

**Azərbaycan Elm Fondu**

**Şöbə müdiri**
**Quliyeva Mülayim Sahib qızı**

____________________
*(imza)*
“ __” _________ 20_-ci il

**İCRAÇI:**

**Layihə rəhbəri**
**İmaməliyeva Nigar Hümmət qızı**

___________________
*(imza)*
“ __” _________ 20_-ci il

# AZƏRBAYCAN ELM FONDU

MÜQAVİLƏYƏ ƏLAVƏ

**Azərbaycan Elm Fondunun Gənc Alim və Tədqiqatçıların 6-cı qrant müsabiqəsinin (EİF-GAT-6-2021-2(39)) qalibi olmuş layihənin yerinə yetirilməsi üzrə**

## ALINMIŞ NƏTİCƏLƏRİN ƏMƏLİ (TƏCRÜBİ) HƏYATA KEÇİRİLMƏSİ VƏ LAYİHƏNİN NƏTİCƏLƏRİNDƏN GƏLƏCƏK TƏDQİQATLARDA İSTİFADƏ PERSPEKTİVLƏRİ HAQQINDA MƏLUMAT VƏRƏQİ

**(Qaydalar üzrə Əlavə 16)**

Layihənin adı: **Qarabağın mədəni-tarixi abidələrinin bərpası planları**
Layihə rəhbərinin soyadı, adı və atasının adı: **İmaməliyeva Nigar Hümmət qızı**
Qrantın məbləği: **45 000 manat**
Layihənin nömrəsi: **EİF-GAT-6-2021-2(39)-13/11/5-M-11**
Müqavilənin imzalanma tarixi: **11 fevral 2022-ci il**
Qrant layihəsinin yerinə yetirilmə müddəti: **12 ay**
Layihənin icra müddəti (başlama və bitmə tarixi): **01 mart 2022-ci il – 01 mart 2023-cü il**
Diqqət! Bütün məlumatlar 12 ölçülü Arial şrifti ilə, 1 intervalla doldurulmalıdır

### Layihənin nəticələrinin əməli (təcrübi) həyata keçirilməsi

| | |
|---|---|
| **1** | Layihənin əsas əməli (təcrübi) nəticələri, bu nəticələrin məlum analoqlar ilə müqayisəli xarakteristikası |
| | (burada doldurmalı)<br>Son dövrlər Azərbaycanda təmir-bərpa və yenidən quruculuq işləri görülür. Vətən müharibəsindən sonra isə Qarabağda gücləndirilmiş bərpa və yenidən quruculuq işləri sürətli şəkildə görülür. Qarabağın mədəni-tarixi abidələri haqqında həm yerli, həm də xarici mütəxəssislər mütəmadi olaraq çalışır. Hal-hazırda yüzlərlə mədəni-tarixi abidələrimiz qismən və ya tamamən dağıdılmışdır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin nəzarəti əsasında bütün işlər görülür. Yolların yenidən bərpası, yeni salınan Zəfər yolu, məscidlərimizin, mədəniyyət abidələrimizin və s. işlər sürətlə həll olunur.<br>Azərbaycanın tarixi-mədəni, dini irsinin çox böyük bir hissəsi Qarabağın payına düşür. İşğaldan azad edilən Qarabağda və ətraf rayonlarda minlərlə maddi-mədəni, dini irs nümunəmiz var ki, onların da çox böyük bir hissəsi işğal dövründə erməni vandalizminə məruz qalıb. Müqəddəs and yerlərimiz, inanc ünvanlarımız düşmən tərəfindən murdarlanıb.<br>Heydər Əliyev Fondunun prezidenti, birinci vitse-prezident Mehriban xanım Əliyevanın |

| | |
|---|---|
| | tapşırığına əsasən mütəxəssis qrupu işğaldan azad olunan ərazilərimizdə ermənilər tərəfindən dağıdılan dini abidələr, məscidlərin bərpasına dair layihəsi üzrə işlərə artıq başlanılıb.<br>İşğal illəri ərzində Şuşa şəhəri və Ağdam rayonunda və digər rayonlarda dağıntılara məruz qalmış dini ibadət yerlərinin bərpası üzrə müvafiq işlərə artıq başlanıb. |
| **2** | Layihənin nəticələrinin əməli (təcrübi) həyata keçirilməsi haqqında məlumat (istehsalatda tətbiq (tətbiqin aktını əlavə etməli); tədris və təhsildə (nəşr olunmuş elmi əsərlər və s. – təhsil sisteminə tətbiqin aktını əlavə etməli); bağlanmış xarici müqavilələr və ya beynəlxalq layihələr (kimlə bağlanıb, müqavilənin və ya layihənin nömrəsi, adı, tarixi və dəyəri); dövlət proqramlarında (dövlət orqanının adı, qərarın nömrəsi və tarixi); ixtira üçün alınmış patentlərdə (patentin nömrəsi, verilmə tarixi, ixtiranın adı); və digərlərində) |
| | *(burada doldurmalı)* |

1. **Layihənin nəticələrindən gələcək tədqiqatlarda istifadə perspektivləri**

| | |
|---|---|
| **1** | Nəticələrin istifadəsi perspektivləri (fundamental, tətbiqi və axtarış-innovasiya yönlü elmi-tədqiqat layihə və proqramlarında; dövlət proqramlarında; dövlət qurumlarının sahə tədqiqat proqramlarında; ixtira və patent üçün verilmiş ərizələrdə; beynəlxalq layihələrdə; və digərlərində) |
| | *(burada doldurmalı)*<br>Layihə çərçivəsində yazılmış elmi məqalələrdən (beynəlxalq və daxili jurnallarda, konfrans materialında) dövlət proqramlarında, dövlət qurumlarının tədqiqat proqramlarında və digər işlərdə yararlanmaq olar. |

**SİFARİŞÇİ:**
**Azərbaycan Elm Fondu**

**Şöbə müdiri**
**Quliyeva Mülayim Sahib qızı**

_______________
*(imza)*
“ __” ________ 20_-ci il

**İCRAÇI:**

**Layihə rəhbəri**
**İmaməliyeva Nigar Hümmət qızı**

________________
*(imza)*
“ __” ________ 20_ -ci il

## AZƏRBAYCAN ELM FONDU

MÜQAVİLƏYƏ ƏLAVƏ

**Azərbaycan Elm Fondunun Gənc Alim və Tədqiqatçıların 6-cı qrant müsabiqəsinin (EİF-GAT-6-2021-2(39)) qalibi olmuş layihənin yerinə yetirilməsi üzrə**

**ALINMIŞ ELMİ MƏHSUL HAQQINDA MƏLUMAT**
**(Qaydalar üzrə Əlavə 17)**

Layihənin adı: **Qarabağın mədəni-tarixi abidələrinin bərpası planları**
Layihə rəhbərinin soyadı, adı və atasının adı: **İmaməliyeva Nigar Hümmət qızı**
Qrantın məbləği: **45 000 manat**
Layihənin nömrəsi: **EİF-GAT-6-2021-2(39)-13/11/5-M-11**
Müqavilənin imzalanma tarixi: **11 fevral 2022-ci il**
Qrant layihəsinin yerinə yetirilmə müddəti: **12 ay**
Layihənin icra müddəti (başlama və bitmə tarixi): **01 mart 2022-ci il – 01 mart 2023-cü il**

Diqqət! Bütün məlumatlar 12 ölçülü Arial şrifti ilə, 1 intervalla doldurulmalıdır

### 1. Elmi əsərlər (sayı)

| № | Tamlıq dərəcəsi / Elmi məhsulun növü | Dərc olunmuş | Çapa qəbul olunmuş və ya çapda olan | Çapa göndərilmiş |
|---|---|---|---|---|
| 1. | Monoqrafiyalar | - | - | - |
| | həmçinin, xaricdə çap olunmuş | - | - | - |
| 2. | Məqalələr | 6 | | |
| | | | | |

| | | | | |
|---|---|---|---|---|
| | həmçinin xarici nəşrlərdə | 4 | | |
| | | | | |
| 3. | Konfrans materiallarında məqalələr<br><br>O cümlədən, beynəlxalq konfras materiallarında | 1 | | |
| 4. | Məruzələrin tezisləri | 0 | | |
| | həmçinin, beynəlxalq tədbirlərin toplusunda | 0 | | |
| 5. | Digər (icmal, atlas, kataloq və s.) | - | - | - |

**2. İxtira və patentlər (sayı)**

| № | Elmi məhsulun növü | Alınmış | Verilmiş | Ərizəsi verilmiş |
|---|---|---|---|---|
| 1. | Patent, patent almaq üçün ərizə | - | - | - |
| 2. | İxtira | - | - | - |
| 3. | Səmərələşdirici təklif | - | - | - |

**3. Elmi tədbirlərdə məruzələr (sayı)**

| № | Tədbirin adı (seminar, dəyirmi masa, konfrans, qurultay, simpozium və s.) | Tədbirin kateqoriyası (ölkədaxili, regional, beynəlxalq) | Məruzənin növü (plenar, dəvətli, şifahi, divar) | Sayı |
|---|---|---|---|---|
| 1. | Konqres - Karabakh III International Congress of Modern Studies in Social Sciences and Humanities “Year of Shusha - 2022” | Beynəlxalq | Dəvətli | 1 |
| 2. | | | | |
| 3. | | | | |

**SİFARİŞÇİ:**
**Azərbaycan Elm Fondu**

**Şöbə müdiri**
**Quliyeva Mülayim Sahib qızı**

___________________
*(imza)*
" __" ________ 20_-ci il

**İCRAÇI:**

**Layihə rəhbəri**
**İmaməliyeva Nigar Hümmət qızı**

__________________
*(imza)*
" __" ________ 20_-ci il